**Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılmasına dair 2018-ci ildə həyata keçirilən fəaliyyət haqqında ümumiləşdirilmiş**

# MƏLUMAT

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 652 nömrəli Fərmanı ilə “Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə, gənclər siyasəti sahəsində qrantlara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Gənclər Fondu ilə razılaşdırılması Qaydası” (bundan sonra – Qayda) təsdiq edilmişdir. Qaydaya əsasən aşağıda qeyd olunan dövlət orqanları qeyri-hökumət təşkilatlarına qrantların verilməsini Şura ilə razılaşdırmalıdır:

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi
3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi
4. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
5. Azərbaycan Respublikasının Təhsil Nazirliyi
6. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi
7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
8. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
9. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
10. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
11. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası

Qaydanın icrası ilə bağlı Şuranın 02 mart 2016-cı il tarixli 03 (144) nömrəli qərarı ilə bu sahədə fəaliyyətin təşkilati-metodiki əsaslarını nəzərdə tutan müvafiq təlimat qəbul edilmişdir. Təlimatın əsas məqsədi dövlət orqanları tərəfindən verilən qrantlar vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzuların qiymətləndirilməsi və bu qrantlara dair rəylərin şəffaf, obyektiv və operativ qaydada təqdim edilməsindən ibarətdir. Qaydaya uyğun olaraq hazırlanmış elektron proqram vasitəsilə dövlət orqanları tərəfindən təqdim olunmuş məlumatlara dair rəylərin verilməsi Şura üzvləri və Şura Katibliyinin əməkdaşlarından ibarət tərkibdə və kollegial qaydada fəaliyyət göstərən Komissiya tərəfindən həyata keçirilir.

Qaydaya əsasən dövlət orqanlarının qeyri-hökumət təşkilatlarına qrantların verilməsi Şura ilə iki mərhələ üzrə razılaşdırılır:

- 1-ci mərhələ: müsabiqələrə və qrant vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzulara dair məlumatlar;
- 2-ci mərhələ: müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatları barədə məlumatlar.

Qaydanın icrası ilə əlaqədar Şura 2018-ci il ərzində dövlət orqanlarından daxil olan müraciətlərə baxmış və onları müvafiq tələblərə uyğun olaraq cavablandırmışdır.

**1-ci mərhələ üzrə** 2018-ci il üçün müsabiqələrin və qrant vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzuların razılaşdırılması ilə bağlı aşağıda qeyd olunan dövlət orqanları müvafiq məlumatları Şuraya təqdim etmişlər:

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən 56 mövzu üzrə müsabiqənin keçirilməsinə dair məlumatlar təqdim olunmuşdur. Şura Nazirlik tərəfindən təqdim olunmuş bu mövzular üzrə müsabiqələrin keçirilməsinə müsbət rəy vermişdir.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən 3 mövzu üzrə müsabiqənin keçirilməsinə dair məlumatlar təqdim olunmuşdur. Şura Nazirlik tərəfindən təqdim olunmuş bu mövzular üzrə müsabiqələrin keçirilməsinə müsbət rəy vermişdir.

3. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası tərəfindən 2 mövzu üzrə müsabiqənin keçirilməsinə dair məlumatlar təqdim olunmuşdur. Şura Komissiya tərəfindən təqdim olunmuş bu mövzular üzrə müsabiqələrin keçirilməsinə müsbət rəy vermişdir.

2019-cu il üçün müsabiqələrin və qrant vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzuların razılaşdırılması ilə bağlı Qaydaya uyğun olaraq 2018-ci ilin dekabr ayının 30-dək aşağıda qeyd olunan dövlət orqanları müvafiq məlumatları Şuraya təqdim etmişlər:

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən 28 mövzu üzrə müsabiqənin keçirilməsinə dair məlumat təqdim olunmuşdur.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən 3 mövzu üzrə müsabiqənin keçirilməsinə dair məlumat təqdim olunmuşdur.

3. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası tərəfindən 2 mövzu üzrə müsabiqənin keçirilməsinə dair məlumat təqdim olunmuşdur.

4. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən 5 mövzu üzrə müsabiqənin keçirilməsinə dair məlumat təqdim olunmuşdur.

**2-ci mərhələ üzrə** 2018-ci ildə müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatları və onların təqdim etdikləri layihələrin Şura ilə razılaşdırılması məqsədilə aşağıda qeyd olunan dövlət orqanları müvafiq məlumatları Şuraya təqdim etmişlər:

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən 43 layihə təqdim olunmuşdur. Nazirlik tərəfindən üstünlük verilən və ümumi məbləği 1 778 179,0 manat təşkil edən 26 layihədən 7-nə Şura müsbət rəy vermişdir. Şura tərəfindən müsbət rəy verilən 7 layihənin ümumi məbləği 392 000,0 manat təşkil edir.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən 51 layihə təqdim olunmuşdur. Nazirlik tərəfindən üstünlük verilən və ümumi məbləği 546 167,0 manat təşkil edən 2 layihənin hər 2-nə Şura müsbət rəy vermişdir.

3. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası tərəfindən ümumi məbləği 42 000,0 manat təşkil edən 5 layihə təqdim olunmuşdur. Komissiya tərəfindən üstünlük verilən 5 layihənin hamısına Şura müsbət rəy vermişdir.